Ulduz Qasım

XOCALI ŞİKƏSTƏSİ

(roman)

(əvvəli ötən saylarımızda)

Heç olmasa, ömrümü bir mərd insana həsr edim bu dünyada.

-Sən nə danışırsan? Mənim mərd olduğumu hardan bilirsən?

-...

Susdular. Elə bu an Səməndər kişinin nurlu üzü gəlib durdu Fərhadın gözlərinin önündə. "Ən yaxşısı onunla danışaram. Başqa çıxış yolu yoxdu. Bu qıza da yazığım gəlir. Günahı nədir bunun? Gör nələrə qatlaşmağa hazırdı gül kimi qız...".

Dilarə ayağa qalxdı. Dediyi sözlərə görəmi, qürurunu bir kişinin qarşısında qırdığına görəmi, yoxsa, sadəcə utandığına görəmi Fərhadın üzünə baxmadı. Yanaqları bir az da qızarmışdı. Bu səhnə doktoru o qədər sarsıtmışdı ki, siqareti-siqaretə calayırdı. Ayaqda duran Dilarə başını qaldırmasa da onun təlaşını hiss edirdi. Fərhadın necə əziyyət çəkdiyini bilirdi. Ancaq ona nə deyəcəyini bilmirdi.

-Dilarə, qoy bir az fikirləşim. Özümü itirmişəm, Vallah. Sənə kömək etmək istəyirəm. Ancaq düşünməyim lazımdı. Anlayırsan?

-Hə.

Səməndər kişi Fərhadın gələcəyini gözləmirdi.

Xeyr olsun, sanki özü-özüylə danışdı, bir qədər uca səslə:

- Buyur, oğlum, otur, - dedi. Sonra da əlavə elədi: - Ay Gövhər, çay gətir bizə.

-Zəhmət vermə, Səməndər dayı.

-Nə zəhməti, oğul. Sən bu evin adamısan.

-Elə ona görə deyirəm.

Əlində çay içəri girən Gövhər xala dedi:

-Vallah, biz səni Bəxtiyardan seçmirik. Öyrəşmişik.

-Əskik olmayasınız, Gövhər xala.

Fərhadın nəsə bir məqsədi olduğunu bayaqdan hiss edən Səməndər kişi:

-Sözlü adama oxşayırsan, oğul, - dedi.

-...

Fərhad nədən və necə başlayacağını düşündü. Səməndər kişi zəndlə Fərhadın üzünə baxır, onun nə deyəcəyini gözləyirdi. Elə bil Bəxtiyarın içəri girməyi onları darlıqdan qurtardı. Oğlan salamlaşdı:

-Necəsiniz, Fərhad həkim, xoş gəlmisiniz!

-Sağ ol, Bəxtiyar, salamatçılıqdı.

-Bayaq Dilarəni gördüm məntəqədə, problemi var nəsə?

-Xəstəliyi-zadı yoxdu, gəlmişdi...

-Xeyir olsun...

-Elə sizə də o səbəbdən gəlmişəm. Vallah, heç bilmirəm sizə necə deyim... İstəyir onunla evlənim.

-Nəəəəə? - Səməndər kişinin gözü hədəqəsindən çıxdı.

-Hə, ancaq siz düşünən kimi deyil. Deyir, elə bacı-qardaş kimi yaşayarıq. Mən sənin pal-paltarını yuyaram. Yeməyini bişirərəm. Mənim də üstümdə ad olar ki, ərim var, heç kim narahat etməz. Dediyinə görə qonşu kənddən kimsə onunla evlənmək istəyib. Bu da razı olmayıb. İndi gəlib biriki dəfə qızı qorxudub. Doğrusu, mən də bilmirəm bu nə işdi. Mənim vəziyyətimi görürsünüz. Şikəst adamam. O, gözəl və ağlı başında bir qızdı. Heç Allaha rəvadı, belə yaşasın? Bəlkə ağlı başında, normal birisiylə ailə qurar. Ona görə gəldim. İndi mən neyləyim?

Səməndər kişi içini arıtldı. Bəxtiyar gözlərini yerə dikdi. Gövhər lal-dinməz ayaq üstə quruyub qaldı. Nəhayət, kişi dilləndi.

-Dilarə qeyrətli qızdı. Heç bilmirəm necə olub, bu sözləri sənə deyib.

-Məncə, məcburiyyətdəndi. Tək qızdı, abrını tərbiyəsiz adamlardan qorumaq üçün bu addımı atıb.

Səməndər kişi vaysındı:

-Vaxtında ərə getsəydi, belə işəlr başına gəlməzdi. Yaş ötdü. İndi bilirsən oğlanların iyirmi yaşı oldu, evləndirirlər. Lap dünya gözəli olsun, yaş iyirmi beşi adlayanda, deyirlər qocalıb.

-Çıxılmaz vəziyyətdə qalmışam. Əslində bu, heç doğru deyil. Onun uyğun birisiylə ailə qurması yaxşı olar. Həm də mənim həyatımda elə ağır işlər var ki, indi onları sizə deyə bilmirəm. Ancaq Dilarənin halı məni narahat edir. Tək yaşaması çətindi. Bu belədi...

- Narahat eləyən olmasa, o, heç nədən qorxan deyil. Atasından qalma ov tüfəngini böyrünə qoyub yatır.

Həkim üzünü Gövhər xalaya sarı çevirib soruşdu:

-Gövhər xala, bəs siz nə deyirsiniz bu işə?

-Nə deyim, ay oğul? Çətin işdi. Qoy gəlib bizdə qalsın, qızım olusun, deyərdim. Ancaq bilirsən, bizim adamların dedi-qodusunu. İnsanların ağzı cuval deyil ha, büküb bağlayasan. Hərə bir yana yozacaq. Bəxtiyarın yaşdaşı olsaydı, alardıq.

Bəxtiyar susurdu. Fərhad onun gözlərinə baxmaq istəyirdi.

-Bəxtiyar, qardaşım, sən heç sözə-söhbətə qarışmırsan... İndi biz neyləyək?

Bəxtiyar başını qaldırıb həkimin gözlərinin içinə baxdı. Orada qəribə bir həya, sirli bir işartı vardı...

Fərhad bütün gücünü toplayıb dilinin ucunda düyün düşən sözü yavaş səslə dedi:

-Deyirəm, bəlkə Dilarəni Bəxtiyara alaq.

Səməndər kişi belə bil bu təklifi illər öncə gözləyirmiş. Dedi:

-Sözündə yanlışlıq görmürəm. Ancaq bunların arasında beş-altı il yaş fərq var. Bəxtiyara biz nə desək, odu. Dilarənin fikri nədi, onu bilmirəm.

-Siz özünüz danışın onunla. Sözünüzü yerə salmaz. Xətrinizi istəyir.

-Könül məsələsidi, oğul. Bəlkə elə indi gedib qızın fikrini öyrənək, Gövhər?

-Nə dəyirəm, necə məsləhətdi, elə olsun.

Bəxtiyar dinmirdi. Bu, Fərhadın gözündən yayınmadı.

-Qardaş, niyə dillənmirsən?

-Nə deyim, doktor? Atam bilən məsləhətdi, - dedi və dərhal qalxıb eşiyə çıxdı. Fərhad anladı ki, bu işə Bəxtiyarın könlü var.

Səməndər kişi növbəti çətin sualı verdi:

-Ay oğul, bəs biz qızı kimdən istəyəcəyik?

Fərhad qətiliklə cavab verdi.

-Yaxşı...

Demək olar ki, günaşırı onlara baş çəkən, hər gəlişi ilə gətirdiyi hədiyyələrlə, meyvə, ərzaq torbalarıyla varlığı yalnız özünə bəlli olan qızının başsız qalan ailəsini sevindirən Həmid kişi birdən-birə sanki qeybə çəkildi. Heç özünün də anlamadığı doğma bir niskil Məryəmin dincliyini əlindən aldı. Ay Allah, bu kişiyə nə oldu? O, bu səbrin yiyəsi deyildi axı?

Dərsdən, uşaqlardan macal tapan kimi heç şənbə, yır-yığış günü də deyildi, üst paltarını dəyişdi, uşaqları onlara baş çəkməyə gələn xalası qızı Şəfiqəyə tapşırıb, Həmid müəllimin evinə getdi. Zəngi basdı. Qapıya gələn olmadı. Qonşu qapını döydü. Yaşlı kişi qapını araladı:

Özüylə danışar Gövhər xala.

Fərhad çölə çıxıb dərindən nəfəs aldı. Elə bil üstündən ağır bir yük götürüldü. Onun içini yeyib-bitirirdi Dilarənin yalnızlığı, tərbiyəsiz adamların onu narahat etməsi. O, Səməndər dayının, Bəxtiyarın, Gövhər xalanın ürəyinə bir daha heyran oldu. Gör necə gözəl insanlar var yer üzündə. Təmiz, xeyrxah. Çətin zamanlarda düzgün qərar verməyi bacaran gözəl qəlbli insanlar! Fərhada elə gəlirdi haralardasa öz yurdundan, öz elindən uzaqlarda heç bir qohumluq əlaqəsi olmayan bir qızın deyil, doğma bacısının çətinliyini yoluna qoymuşdu. İçində bir rahatlıq duydu. Nə ayağının altında xırıldayan qar, nə çölün soyuğu təsir edirdi. Yosma dağın ətəyində yerləşən kiçik kəndin gözəlliyinə baxdı. Sanki birinci gün idi görürdü buraları.

Xocalını xatırladı. Xəyallar ruhunu o yerlərə götürdü, doğma topaqlara. İçində sızıltı duydu. Səməndər kişinin gəlib böyründə dayandığını hiss etmədi. Kirpiklərinin üstə çilənən qar dənələri dağlara zillənən baxışlarının qarşısını kəsə bilmirdi.

Səməndər kişinin sözləri soyuq havanı yardı:

-Sözümüz sözdü ha, hazırlaş, axşam qız istəməyə gedirik.

Fərhad mızıldandı:

-Bəlkə mən getməyim?

-Elə şey olar? Bəxtiyarın qardaşı deyilsən?

-Yaxşı, - dedi Fərhad.

Həkim bir də soruşdu:

-Deyirəm nəyisiniz?

Məryəm kəkələdi:

-Qı..zıı...

- Ancaq orda çox qalmaq olmaz. Ciddi ürək problemi var. Bəs indiyəcən hardaydınız? Demişdi qızım var.

Bu söz onu çaşdırdı: "Bəs, Həmid dayı deyirdi heç kimi yoxdu. Bəlkə heç bu, o adam deyil. Nə çoxdu eyni adda, eyni familyada adam".

Həmid kişi dərin yuxuda idi. İçəri girənə reaksiya vermədi. Çarpayının böyründə durdu Məryəm. Xəstənin həqiqətən yatdığını görəndə sakitləşdi: "Şükür, yatıb. Yoxsa, mənim də ağlıma gəlməyənlər qalmır. Oyatmayım barı. Qoy yatsın. Gözlərəm, ayılar, görüşərik". Taburetkanı çəkib oturdu. Bir müddət sonra yuxudan ayılan Həmid kişi gözlərinə inanmadı.

-Yuxu görürəm, yoxsa sənsən?

-Oyatdım sizi, bağışlayın, necəsiniz? Neçə gündü gəlmədiniz. Narahat olduq. Niyə burdasınız? Evinizə getdim. Qonşu burda olduğunuzu dedi. Gəldim görüm necəsiniz?

-Narahatçılıq nədi, qızım? Məni sevindirdin. Yaxşı ki, gəldin. Elə görmək istəyirdim səni.

Həmid kişi uzanılı tumbuçkanın siyirməsindən bir neçə kağız götürdü. Sonra üzünü Məryəmə çevirdi.

-Al bunları .

-Bunlar nədir?

-Al qızım. Sonra oxuyarsan. Xahiş edirəm, indi açma.

Məryəm nə deyəcəyini bilmədi. Həmid kişi Məryəmin əlindən tutub sinəsinin üstünə qoydu, pıçıldadı:

-Qızım...

Məryəm əlini çəkmədi. Onun gözündən axan yaş daşı da ağladardı.

-Qızım...

Həmid kişi başqa söz deyə bilmirdi. Kəlmələr boğazında tıxanırdı. Nə zamandı ürəyinə yığdığı, əzbərlədiyi sözlərin heç birini söyləməyə güc tapmadı. Bircə kəlmə pıçıldaya bildi: "Heyf...". Nə üzür dilədi, nə istəyini dilə gətirdi. Nə də ömür boyu həsrətiylə yaşadığı Mələk haqqında söz açdı. Biryolluq susdu. Və bu sükutu bir daha pozmadı. Məryəm əvvəlcə bir şey unamadı. Xəstənin yenidən yuxuladığını zənn etdi. Diqqətlə üzünə baxanda hiss elədi ki, adam nəfəs almır. Hövlanak həkimin otağının qapısını açdı. Həkim onun üzündəki ifadədən hər şeyi anladı.

-Deyəsən...

Həkim Həmid kişinin nəbzini yoxladı. Gözlərinə baxdı.

-Çox təəssüf edirəm, keçinib, - dedi və mərhumun gözlərini sığayıb qollarını düzəltdi, adyalla üzünü örtdü.

-Allah rəhmət etsin! Başınız sağ olsun! Yaxşı adam idi atanız.

(ardı var)